«DİVANÜ LÜĞAT-İT-TÜRK»ÜN QRAMMATİK GÖSTƏRİCİSİ VƏ ONUN ƏHƏMİYYƏTİ

Azərbaycanda nəşr olunan elmi kitablarda bir qayda olaraq indeks verilmir. Yalnız son dövrlərdə bəzi əsərlərin indeksi də hazırlanaraq kitabların sonuna əlavə edilir. Halbuki bunsuz əsərin elmi dəyəri xeyli aşağı düşür. Çünki indeks olmadan oxucu kitabda adı çəkilən və onu maraqlandıran hər hansı müəllif, tarixi şəxsiyyət, tayfa, yer adı və s. dərhal tapmaq imkanına sahib olmur, bunun üçün bütün kitabı vərəqləmək məcburiyyətində qalır, dolayısı ilə kitabdan səmərəli şəkildə istifadə edə bilmir.

Ölkəmizdə, təəssüf ki, əsərlərin qrammatik göstəricisini hazırlamaq da dəbdə deyil. Bunun səbəbi hər şeydən əvvəl ondadır ki, qrammatik göstərici hazırlamaq çox ağır, üzücü, hətta məşəqqətli işdir. İkincisi, bəzi alimlərin fikrincə, qrammatik göstərici özlüyündə elmi deyil, texniki işdir və ona sərf edilən vaxta, enerjiyə və zəhmətə dəyməz. Üçüncüsü, bu tipli göstəricilər gənc tədqiqatçıları tənbəlləşdirir, hazıra nazir edir, onların axtarış həvəsini azaldır, az qala, elmdən uzaqlaşdırır. Mən bu düşüncələri paylaşmıram.

Məlum olduğu kimi, bu il dahi türk dilçisi Mahmud Kaşğarinin 1.000 illik yubileyi bütün dünyada qeyd edilir. Bir əhli-qələm və türkoloq olaraq mən də bu bayrama öz töhfəmi vermək üçün bəzi layihələri gerçəkləşdirməyə çalışdım. Əziz müəllimim və böyük dostum professor Tofiq Hacıyevin tövsiyəsi ilə «Mahmud Kaşğarinin «Divanü lüğat-it-türk» əsərinin morfologiyası» mövzusunda doktorluq işimi bitirdim və müdafiəyə təqdim etdim. Nəzərdə tutulan plana uyğun olaraq əsərin rus dilinə tərcüməsini, habelə «Mahmud Kaşğari və onun «Divanü lüğat-it-türk» əsəri» adlı monoqrafiyamı da

nəşriyyata verdim. Ümid edirəm ki, bu ilin sonuna qədər, yəni yubiley başa çatmadan bunlar işıq üzü görəcək.

Bir neçə ay bundan əvvəl «Mahmud Kaşğarinin 1.000 illik yubileyinə 1.000 biblioqrafik göstərici»[1] adlı əsəri çap etdirmişdim. Bu ilin may ayında Ankarada Hacəttəpə Universiteti Türkiyyat Araşdırmaları İnstitutu tərəfindən keçirilən «Mahmud Kaşğari və dönəmi» adlı beynəlxalq simpoziumda müxtəlif ölkələrdən gələn həmkarlarım bu göstəricini böyük maraqla qarşıladılar. Daha sonra həmin mövzuda axtarışları davam etdirərək Mahmud Kaşğari və onun «Divan»ı barədə müxtəlif dillərdə və dövrlərdə yazılmış təqribən 1.300 əsərin adını ehtiva edən yeni göstəricini divanşünasların istifadəsinə təqdim etmək fikrinə düşdüm. Həm də genişləndirilmiş biblioqrafik göstərici ilə qrammatik göstəricini eyni kitabda birlikdə vermək qərarına gəldim. Zənnimcə, bu, alimlər və mütəxəssislər üçün daha rahat və səmərəli olacaq.

«Divanü lüğatittürk»ün qrammatik göstəricisi əsərdə işlənmiş isim, sifət, say, əvəzlik, zərf və felləri əmələ gətirən şəkilçiləri əhatə edir. Burada əsas məqsəd XI əsrdə türkcənin sözyaratma və sözdüzəltmə imkanlarını göstərmək, dilin zənginliyini və qüdrətini, qrammatik ifadə vasitələrinin genişliyini gözlər önünə sərməkdir.

İltisaqi dil olmaq etibarilə türk dillərində sözdüzəldici şəkilçilərin sayı olduqca çoxdur. Məsələn, N.Uzun, L.Uzun, Y. Aksan və M.Aksan çağdaş türk dilində bu qəbildən 191 şəkilçi[2], Həmzə Zülfüqar təqribən 170 şəkilçi[3] olduğunu bildirmişlər. Biz Zeynəb Korkmazın müasir türk dilinin morfologiyasına həsr olunmuş fundamental kitabında sözdüzəldici şəkilçilərin ümumi sayını 193 olaraq təsbit etdik ki, bunlardan 61-i adlardan isim düzəldir[4].

Təbii ki, çağdaş türk dillərində Şərq, Qərb mənşəli bir sıra alınma şəkilçilər də vardır. Məsələn, Azərbaycan ədəbi dilində ərəb mənşəli -iyyə (səh+iyyə), -iyyət (cəm+iyyət), -iyyat

---

[1] Ramiz Əskər. Mahmud Kaşğarinin 1.000 illik yubileyinə 1.000 biblioqrafik göstərici. Bakı: MBM, 2008, 96 s.

[2] N.E.Uzun, L.S.Uzun, Y.K.Aksan, M.Aksan. Türkiye Türkçesinin Türetim Ekleri Bir Döküm Denemesi. Ankara: 1992, s. 23.

[3] Hamza Zülfikar. Terim Sorunları ve Terim Yapma Kılavuzu. Ankara: 1991, s. 48.

[4] Zeynep Korkmaz. Türkiye Türkçesi Grameri (Şekil Bilgisi). Ankara: 2003, TDK, s. 33-136.

(ədəb+iyyat), -at, -ət (tədqiq+at, qəfl+ət), -i, -vi (elm+i, lüğə-+vi), fars dilindən keçmə -dar (heyvan+dar), -keş (zəhmət+keş), -şünas (təbiət+şünas), -stan (gül+ü+stan) kimi çoxlu şəkilçi, Şərq və Qərb mənşəli -izm (sosial+izm), -ist (material+ist) kimi şəkilçilər, na- (na+razı), ba- (ba+xəbər), bi- (bi+-vəfa), anti- (anti+faşist), a- (a+normal) kimi önşəkilçilər və s. mövcuddur.

S.Cəfərov şəkilçiləri sözdüzəldici (leksik-qrammatik) və sözdəyişdirici (qrammatik-leksik, qrammatik) olmaqla iki qrupa bölür[1]. Bu bölgü DLT üçün də məqbuldur. Lakin biz burada sırf texniki səbəblərə görə həmin qrupları fərqləndirmirik və hamısını birlikdə veririk.

«Divan»da müxtəlif şəkilçilər vasitəsilə eyni kökdən yaranan sözlər kifayət qədərdir. Əyanilik naminə bir neçə misal göstərək: *baş* kökündən *baş+ak «*təmrən, ox başlığı» (I, 380)*, baş+ğak* «sümük çıxıntısının üstü» (I, 457)*, baş+ğan* «xalqın başçısı; böyük bir balıq» (I, 430), *baş+ğıl* «başı ağ» (I, 464)*, baş+ıl* «başı ağ» (I, 392)*, baş+mak* «ayaqqabı» (I, 454), *baş+-nak* «zirehsiz və dibilqəsiz adam» (I, 454)*, baş+tar* «oraq» (I, 444) sözləri və s. yaranır. Eləcə də *öl-* kökündən *öl+məs* «ölməz» (III, 48), *öl+üg* «ölü» (I, 65), *öl+üm* (II, 110)*, öl+üt* «öldürmə» (I, 124) sözləri*, kıs-* kökündən isə *kıs+ğa* «qısa» (II, 40), *kıs+ğaç* «kəlbətin, qısğaç» (I, 444), *kıs+ığ* «həbs; sıxıntı» (I, 377), *kıs+ır* «qısır» (III, 80), *kıs+mak* «üzənginin iki yanında olan qayış; ilgəkli ip, kəmənd» (II, 225), *kıs+rak* «qısraq, madyan» (III, 83) kimi sözlər meydana gəlir.

Bu tipli misalların sayını ismlər, fellər, sifətlər üzrə istənilən qədər artırmaq olar.

Çağdaş türkcədə feldən isim yaradan şəkilçilərin sayı 51 olaraq hesablanmışdır[2]. Zeynəb Korkmazın həmin kitabında bu rəqəm 79-dur[3]. Qədim və orta türk dövrünə aid mətnlərdə fellərdən isim düzəldən şəkilçilər də çoxdur. Məsələn, Annemari fon Qaben əski türkcədə feldən isim yaradan 31 şəkilçi[4],

---

[1] S.Cəfərov. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1982, s. 155-157.
[2] G.Mungan. Türkçede Fiillerden Yapılmış İsimlerin Morfolojik ve Semantik Yönden İncelenmesi. İstanbul: Simurg, 2002, s. 47.
[3] Zeynep Korkmaz, həmin əsər, s. 67-109.
[4] Annemari von Gabain. Eski Türkçenin Grameri. Ankara: 2000, s. 51-55.

Tələt Təkin isə Orxon abidələrində 26 şəkilçi[1] olduğunu yazmışdır. Nəcməddin Hacıeminoğlu qaraxanlıcada bu qəbildən 17 şəkilçinin[2] varlığından söz açmış, Robert Dankoff və Ceyms Kelli isə DLT-də 13 şəkilçi[3] qeydə almışlar. Bizim qrammatik göstəricidə adlardan isim yaradan şəkilçilərin miqdarı 30-dan artıq, fellərdən isim yaradan şəkilçilərin sayı isə 25-dən çoxdur.

Zeynəb Korkmazın həmin kitabına görə, çağdaş türkcədə adlardan fel yaradan 26 şəkilçi[4], fellərdən fel yaradan 27 şəkilçi mövcuddur [5]. Əhməd Bican Ərcilasun «Qutadğu Bilig»də felə həsr olunmuş monoqrafiyasında fellərdən fel düzəldən 21 şəkilçi göstərmişdir[6]. Təqribən 13 min misra olan bu irihəcmli bədii əsərdə morfoloji baxımdan situativ məqamların çoxluğu diqqəti cəlb edir və orada bütün şəkilçilərə rast gəlmək mümkündür. DLT-də isə misallar bir qayda olaraq III şəxsin təkində verilir və məxsusən göstərilməmişsə, müvafiq misallar tapmaq çox çətindir. Bizim tərtib etdiyimiz göstəricidə bu rəqəm adlardan fel yaradan şəkilçilər üzrə 40-a yaxın, fellərdən fel yaradan şəkilçilər üzrə isə 50-dən artıqdır.

«Divan»da adlardan sifət yaratmada təqribən 15, fellərdən sifət düzəltmədə 15 şəkilçi, zərflərin əmələ gəlməsində isə 7 şəkilçi iştirak edir.

Ayrı-ayrı nitq hissələri və ya bölmələr üzrə baxdıqda, şəkilçilərin miqdar etibarilə çoxluğu diqqətimizi cəlb edir. Məsələn, «Divan»da sifətin yaranması çağdaş dilimizdə olduğundan xeyli fərqlənir. Burada sifətlər *-lığ, -lig, -luğ, -lüg, -sız, -siz, -suz, -süz, -lık, -lik, -luk, -lük, -kı, -ki, -dak, -dük, -da+kı, -də+ki, -al, -əl, -ıl, -il, -ul, -ül, -ğıl, -kil, -kin, -kül, -çıl, -çil, -sığ, -siğ, -sak, -sək, -suk, -sük, -ğak, -gək, -ağu, -əgü, -əz, -üz, -rək, -ut, -üt, -ru, -mul, -sal, -çın, -ğ, -ığ, -ig, -uğ, -üg, -k, -ık, -ik, -uk, -ük, -ınç, -inç, -unç, -ünç, -nçu, -ınçı, -inçi, -unçu, -ünçü, -(ı)nçığ, -*

[1] Talat Tekin. Orhon Türkçesi Grameri. İstanbul: 2003, s. 90-94.
[2] Necmettin Hacıeminoğlu. Karahanlı Türkçesi Grameri. Ankara: 2003, s. 18-27.
[3] Mahmud al-Kashghari. Compendium of the Turkic Dialects (Diwan Lughat at-Turk). Edited and Translated with İntroduction and İndices Robert Dankoff in collaboration with James Kelly. Harvard: part III, 1985, p. 317-318.
[4] Zeynep Korkmaz, həmin əsər, s. 33-136.
[5] Zeynep Korkmaz, həmin əsər, s. 33-136.
[6] Ahmet Bican Ercilasun. Kutadgu Bilig Grameri. Fiil. Ankara: 1984, s. 21-45.

(ı)*nçak, -ğun, -ğın, -gin, -kun, kın, -kin, -ğak, -ğuk, -druk, -lak, -lək, -ma, -mə, -ğa, -gə, -yuk, -yüg, -ın, -in, -un, -ün, -nak, -ğıl, -u, -ağan, -əgən -p, -m* və sair şəkilçilər vasitəsilə yaranır ki, bunlardan bir çoxu müasir dilimizdə işlənmir.

DLT-də fel, xüsusən də felin təsriflənməyən növü müasir dilimizdən bəzi xüsusiyyətləri ilə seçilir. Hər şeydən əvvəl həmin dövrdə hərəkət adları indikindən daha zəngin olmuş, hazırda işlədilən *-mak*, *-mək* və *-ış*, *-iş*, *-uş*, *üş* şəkilçiləri ilə yanaşı *-ık, -ığ*, *-ig* və *-ğu, -gü, -sığ*, *-sig, -suğ, -süg* şəkilçiləri də hərəkət adları yaratmışdır.

Feli sifətlərdə də bəzi fərqlər müşahidə olunur. Burada da şəkilçilərin çoxluğu və zənginliyi diqqəti cəlb edir. Misal üçün, «Divan»da işlənmiş *-duk, -düg, -ğu, -gü, -ku, -kü, -ındı, -indi, -undı, -ündi*, *-daçı, -dəçi, -taçı, -təçi, -ğuçı, -güçi, -kuçı, -ığsak, -igsək*, *-ğlı, -ığlı, -igli, -uğlu, -ügli, -ğlık, -glik, -ığlık, -iglık*, *-ığsı, -igsi*, *-ğsık, -gsik, -ğuluk, -gülük*, *-ğusuz*, *-güsüz, -ındı, -indi, -undi, -ündi* şəkilçiləri müasir dilimizdə yoxdur, *-ası, -əsi, -r, -ar, -ər, -ır, -ir, -ur, - ür, -mas, -məs, -mış, -miş, -an, -ən, -ğan, -gən,* şəkilçiləri isə müştərəkdir. Əvəzində *-acaq, -əcək, -malı, -məli, -dığı, -diyi, -duğu, -düyü* şəkilçiləri ilə yaranan feli sifət formaları DLT-də görünmür.

Feli bağlamalara gəlincə, burada da fəqliliklər və bənzərliklər müşahidə olunur. Məsələn, DLT-də işlənmiş feli bağlama şəkilçilərindən *-ğalı, -kalı, -gəli* dilimizdə işlənmir, *-ğınça, -ginçə şəkilçisi* isə dilimizdəki -(*y*)*ınca*, (*y*)*incə*, -(*y*)*un-ca*, -(*y*)*üncə*, habelə *-dıqca*, *-dikcə*, *-duqca*, *-dükcə* şəkilçilərinin ekvivalentidir. «Divan»da intensiv istifadə olunan *-p, -ıp, -ip, -up, -üp* və *-ıban, -ibən, -uban, -übən* şəkilçiləri Azərbaycan dili üçün də xarakterikdir, hətta yazılı abidələrimizdə bunların *-ubanı*, *-übəni* variantı da var. Feli bağlama yaradan *-a, -ə, -u, -ü* həm dilimiz, həm də DLT üçün müştərəkdir, *-laşu*, *-ləşü* və *-madhıp*, *-mədhip* şəkilçiləri isə Azərbaycan dilinə yabançıdır.

Biz burada köməkçi nitq hissələrinə toxunmaq fikrində deyildik. Çünki DLT-də köməkçi nitq hissələri şəkilçilərdən daha çox xüsusi söz qrupları vasitəsilə ifadə olunmuşdur. Ancaq «Divan»da əks olunmuş qoşma, bağlaycı, ədat və nidalar, habelə vokativlər, modal, təqlidi və predikativ sözlər indikindən əsaslı surətdə fərqləndiyinə görə, onları da göstəriciyə da-

xil etmək qərarına gəldik. Məsələn, DLT-dəki *layu*, *ləyü* qoşması, *azu* bölüşdürmə bağlayıcısı, *abanq* və *kalı* şərt bağlayıcısı dilimizə yaddır.

Əsərdəki ədatlardan çoxu (*çu, çü*, *şu, şü*, *la*, *yəmə*, *yana*, *yanqıla*, *çak*, *mat, mət, ərki, ərinç, yəmü, kədh, mə, ap*) Azərbaycan dilində heç vaxt işlənməmişdir, yalnız bəzi ədatlar (*takı, dakı, uş, -mı, -mü*) yazılı abidələrimizdə müşahidə olunur.

DLT-dəki əsil nidaların (*va, awa awa, əssis, ah, aç, kı, ay*) və xitab çaları daşıyan nidaların (*uva, iləl, yah, av* və s.) əksəriyyətindən dilimizdə istifadə edilməmişdir. Əsərdəki vokativlər də (*tah-tah, çuh-çuh, kah-kah*, *çək-çək, çilik-çilik*, *həç-həç*, *tuşu-tuşu*, *op-op*, *öp-öp, uş-uş* və i. a.) dilimizin lüğət tərkibində olmamışdır.

Bundan başqa, «Divan»dakı modal sözlər (*abalı*, *ayluk-ayluk*) dilimizə xas deyil, təqlidi sözlər (*kürt kürt, karç-kurç*, *bıç bıç*, *kağ kuğ*, *sart-surt*) isə dilimizə formal baxımdan uyğundur.

«Divan»dakı *bar*, *yok*, *təgül, əməs / ərməs* predikativ sözləri cüzi imla fərqi ilə dilimizdə də işlənmişdir.

Bütün bunları müasir Azərbaycan dili ilə, yazılı abidələrimiz, dialekt və şivələrimizlə müqayisə etmək, fərqli və bənzər cəhətləri üzə çıxarmaq baxımından sistemli qrammatik göstərici çox böyük əhəmiyyət daşıyır. Onun nümunəsində başqa mühüm əsərlərin göstəricisini hazırlamaq, aparılacaq elmi-tədqiqat işlərini asanlaşdırmaq və sürətləndirmək mümkündür. Bu mənada türkologiyanın ən mühüm, ən qədim və irihəcmli əsəri olan «Divanü lüğat-it-türk»ün qrammatik göstəricisi dilçiliyimiz üçün müqayisəli araşdırmalarda baza, etalon rolunu oynaya bilər. DLT ana dilimizə tərcümə olunduqdan sonra bütün ümumtürk və Azərbaycan yazılı abidələrinin tədqiqi zamanı alimlər hökmən «Divan»a müraciət edir, öz arqument və fərziyyələrini bu əsərə istinadən əsaslandırırlar. Biz inanırıq ki, bu qrammatik göstərici də mütəxəssislərin köməyinə çatacaq.

Təbii ki, fundamental türkoloji araşdırmalar üçün təkcə «Divanü lüğat-it-türk»ün qrammatik göstəricisi kifayət deyil. Tezliklə türkcənin oğuz qrupunun şah əsəri «Kitabi-Dədə Qorqud»un, karluq qrupunun incisi «Qutadğu Bilig»in, eləcə

də daha qədim dil yadigarlarından Orxon-Yenisey abidələrinin və «Altun yaruk»un qrammatik göstəriciləri də hazırlanaraq milli filologiyamızın elmi dövriyyəsinə daxil edilməlidir. Azərbaycanda «Altuk yaruk» üzrə heç bir iş görülməməsi isə elmimiz üçün bağışlanmaz bir qüsurdur.

Bizim tərtib etdiyimiz bu göstəricidə 930-dan artıq şəkilçi və söz vardır. Şübhəsiz ki, dilçiliyimizdə ilk təcrübə kimi bu iş nöqsan və çatışmazlıqlardan da xali deyildir. Bəzi şeylər diqqətdən yayınmış, unudulmuş, yaxud yanlış izah edilmiş ola bilər. Zatən, yanlışlar ilk təcrübənin naxışı, ilklərin öz sahəsində cığır açması isə onlarn özəlliyi və gözəlliyidir. Vaxt ötdükcə ilklər bir qayda olaraq daha çox minnətdarlıq duyğusu ilə xatırlanır. Biz isə əsla təşəkkür gözləmir, yalnız xoşgörüyə sığınırıq. Bu işdə tərifə və təqdirə şayan nə varsa, hamısı əziz ustadım, Azərbaycanda türkçülüyün və türkologiyanın bayraqdadarı hörmətli Tofiq Hacıyevə aiddir.

Qrammatik göstəricilər nitq hissələrinə görə sola çıxıntılı şəkildə qara şriftlə ardıcıl düzülmüş və eyni qrupa daxil olan iki, üç, dörd və daha artıq variantlı şəkilçilərin bir-birindən aralı düşməməsinə fikir verilmişdir. Bu zaman hər şəkilçinin yaratdığı nitq hissəsi və köməkçi nitq hissəsi, onların daxilindəki bölmələr də kursivlə göstərilmiş, daha sonra müvafiq misallar (bəzən ərəb əlibası ilə də) verilmişdir. Bəzi şəkilçilərin qarşısındakı nümunələrin çoxluğu diqqəti cəlb edə bilər. Bu da həmin şəkilçinin yaratdığı məna qruplarının çoxluğu ilə əlaqədardır. Biz hər məna qrupuna dair bir nümunə vermək istədik. Bir bölmədə eyni cür iki şəkilçi gördükdə onlardan birinin adlardan, digərinin fellərdən düzəltmə söz yaratdığını nəzərə almaq lazımdır. Göstəricidə misallar və şəkilçilər bir-birinə + işarəsi ilə bağlanmışdır.

Tədqiqatçılara uğurlar arzusu ilə,

Ramiz ƏSKƏR.
Bakı, 25 iyun 2008-ci il.

QRAMMATİK GÖSTƏRİCİLƏR

a) Adlardan və fellərdən isim yaradanlar:

-çı *isim,* **اَیاقجی** ayak+çı «təmirçi, qalayçı» (III, 267), **یزغجی** yazığ+çı «mirzə, katib» (III, 54), **تَرغجی** tarığ+çı «əkinçi» (III, 227), **ایشجی** ış+çı «işçi» (I, 455), **أمدُوجی** umdu+çı «dilənçi» (I, 197), **أقجی** ok+çı «oxçu» (II, 209), **اَقجی** aw+çı «ovçu» (I, 132), **ساقجی** saw+çı «peyğəmbər; elçi» (III, 155), **تَبُغجی** tapuğ+çı «xidmətçi» (I, 377).

-çi *isim,* **تیمجی** tim+çi «şərabçı, meyxanaçı; əyyaş» (III, 141), **ییجی** yi+çi «dərzi» (II, 33), **بُرکجی** börk+çi «papaqçı» (II, 72), **اَمجی** əm+çi «həkim» (III, 236), **کُجَمجی** küsəm+çi «zülmkar» (III, 129), **أتُکجی** ötük+çi «minnətçi» (II, 166).

-lık *isim,* **اَقیلِق** akı+lık «cömərdlik» (III, 169), **ادَشلق** adaş+lık «dostluq» (I, 204), **اَشلِق** aş+lık «aşxana, mətbəx; buğda» (I, 174), **یَنلِق** yan+lık «heybə, dağarcıq» (III, 46), **تَرغلِق** tarığ+lık «taxıl anbarı» (I, 480).

-lik *isim,* **کُفَزلِک** köwəz+lik «ərköyünlük, şıltaqlıq» (I, 484), **اِسِکلِک** isig+lik «sevgi, məhəbbət, eşq» (I, 207),**اَلِکلِک** əlig-+lik «əlcək» (I, 208), **تَرلِک** tər+lik «təri əmən keçə, palan» (I, 461), **بِتِکلِک** bitik+lik «yazı ləvazimatı» (I, 484), **اِزلِک** iz+lik «çarıq» (I, 167), **اِجلِک** iç+lik «keçə, palan» (I, 167), **جَجَکلِک** çəçək+lik «çiçəklik, gülüstan» (I, 484), **کَبَکلِک** kəpək+lik «kəpək saxlanan yer» (I, 484), **جَرلِك** çər+lik «vaxt» (I, 338), **کَبَزلِک** kəpəz+lik «pambıq bitən yer» (I, 483), **سَمِزلِک** səmiz+lik «köklük» (I, 483).

-luk *isim,* **سُقلُق** suw+luk «sarıq, çalma, əmmamə» (II, 247), **أتلُق** ot+luk «axur» (I, 162), **أتُنکلُق** otunq+luk «odunluq, odun damı» (I, 214), **بُزلُق** buz+luk «buzluq, buzxana, içində buz

saxlanan yer» (I, 453), **جُمُشلُق** çumuş+luk «ayaqyolu, həla» (I, 480), **تَقرلُق** tawar+luk «mal qoyulan yer» (I, 480), **اُلغلُق** uluğ+luk «ululuq, böyüklük» (I, 205), **اُجُزلُق** uçuz+luk «ucuzluq» (I, 205).

-lük *isim,* edhgü+lük «yaxşılıq» (I, 117), üzüt+lük «xəsislik» (I, 206), tünq+lük «baca, pəncərə» (III, 31), sögüt+lük «söyüdlük, söyüd bitən yer» (I, 482), tüş+lük «düşərgə» (I, 461), təmür+lük «dəmir əridilən, süzülən yer» (I, 483), kün+lük «günlük, gündəlik» (I, 464), çöküt+lük «boyda balacalıq» (I, 482).

-lığ *isim,* **اَتلِغ اَنی تُلدُردی** at+lığ anı tuldurdı = atlı ona çarpdı (II, 189), **اَلِملِغ بیرملِکدِن اُزلُشدی** alım+lığ berim+ligdin üzlüşdi= borc sahibi ilə borclu ödəşdilər (I, 276), Bakır+lığ «Balasağuna yaxın bir yerin adı» (I, 474).

-lig *isim,* berim+lig «borclu» (I, 276), kapağ+lığ «bakirə» (I, 475), **تُملِـغ کَلِب قبسَدی** tum+lığ kəlip kapsadı = soyuq, şaxta hər yanı qapladı (I, 451).

-luğ *isim,* çaruk+luğ «oğuzlardan bir boyun adı» (I, 475), ulayund+luğ «bir oğuz boyu» (I, 128).

-lüg *isim,* **کُرکلک** körk+lüg «gözəl, görkəmli» (I, 360).

-daş *isim,* **قنکداش قدش** kanq+daş ka+daş =atabir qardaşlar (III, 330), **قنکداش قُما اُرُور اِکدِش اُرُو تَرتار** kanq+daş kuma urur, ikdiş örü tartar = atabir qardaşlar bir-birinə paxıllıq edər və çox dalaşar, anabir qardaşlar isə bir-birinə kömək edərlər (III, 330), karın+daş «qardaş, qarındaş, eyni bətndən çıxan» (I, 405), kol+daş «qoldaş, dost» (I, 449).

-dəş *isim,* könqül+dəş «sirdaş, könüldaş» (I, 405), yer+dəş «həmyerli» (I, 405), əmik+dəş «süd qardaşı» (I, 405), tü+dəş «həmrəng» (I, 404).

-diş *isim,* ik+diş «anabir qardaş» (III, 330).

-k *isim,* orta+k «ortaq» (I, 163), botu+k «köşək, dəvə balası, bo-tux» (III, 207).

-ak *isim,* yol+ak «yol, iz, cığır» (III, 24), yul+ak «bulaq» (III, 23), baş+ak «ox və ya nizənin ucuna keçirilmiş dəmir, ucluq» (I,

380), oğl+ak «oğlaq, çəpiş» (I, 179), yaz+ak «otlaq» (III, 22).

-ək *isim*, tün+ək «zindan, həbsxana; *hərfən:* «qaranlıq yer» (I, 406), ərk+ək «erkək» (I, 172), öz+ək «belin iç qismində olan damar» (I, 139).

-lağ *isim*, tarığ+lağ «tarla, darı, toxum əkilən yer» (I, 478), turuğ+lağ «durulacaq yer; düşərgə» (I, 478), yay+lağ «yay-laq» (I, 63) kış+lağ «qışlaq» (I, 63), kuş+lağ «quşların çox olduğu yer» (I, 452), suw+lağ «heyvan suvarılan yer, yalaq, musluq» (I, 452).

-lək *isim*, ödh+lək «zaman, zəmanə, fələk» (I, 115).

-dam *isim***,** yor+dam (dilimizdə: yol-*yordam, şifahi nitqdə*).

-dəm *isim***, اَردَم بَشی تیل** ər+dəm başı tıl = ərdəmin başı dildir (I, 169).

-tam *isim***, بیر اُقتَم ییر** bir ok+tam yer = bir ox atımı yer, bir ox mə-safəsi (I, 169).

-təm *isim***, اُل یُمُشقا برتَم بَردی** ol yumuşka bir+təm bardı = o, elçiliyə elə bir dəfəlik getdi, I, 466), üs+təm «yəhərə, kəmər başına, toqqalara işlənən qızıl, gümüş, inkrustasiya» (I, 169).

-çak *isim***,** orun+çak «əmanət» (I, 204), bağır+çak «eşşək çulu» (I, 479), kabır+çak «tabut» (I, 479), karın+çak «qarışqa». Oğuzca. «**قرنجا** karınça» da deyilir (I, 479).

-çək *isim***,** tərin+çək «qolsuz qadın geyimi» (I, 485), kün+çək «günəşdən qoruyan yaxa, yaxalıq» (I, 463), pür+çək «birçək; insanın kəkili, atın yalı» (I, 461).

-çık *isim***,** sığır+çık «sığırçın quşu» (I, 479).

-çuk *isim***,** kudhur+çuk «qız uşaqlarının düzəltdikləri kukla, bəbə(k)» (I, 479), oğul+çuk «ana bətni» (I, 204), baka+çuk «qurbağa, çömçəquyruq» (III, 214), kaya+çuk «ətirli bir bitki, türfə yarpağı, zəfəran» (I, 173), yan+çuk «pul və ya tütün kisəsi» (III, 46).

-çük *isim***, کُنجُک** kün+çük «yaxa, yaxalıq» (I, 463).

-ç *isim*, **اَنَج** ana+ç «hamının anasıymış kimi özünü sevdirən, uşaqlıqdan böyük bir dərrakə göstərən qız uşağı» (I, 125),**اَتَج**

ata+ç «özünü xalqın böyüyü kimi aparan uşaq» (I, 125), **اَكَج** əkə+ç «özünü hamıya bacı kimi sevdirən, uşaqıqdan dərrakə və zirəklik göstərən qız» (I, 125), Yenisey abidələrində əgə+ç «bibi» (Y, 41) variantı da var.

-aç *isim*, **اِكى قُجنكار بَشى بير اَشَجتا بشماس** iki koçnqar başı bır aş+aç+ta pışmas=iki qoçun başı bir qazanda qaynamaz (III, 330).

-əç *isim*, **بَكَج** bək+əç «təkinlərin titulu» (I, 364), **بَكَج** bəg+əç «bəyciyəz» (I, 364), **كُزَج** köz+əç «parç, piyalə» (I, 365), **كُدَج** ködh+əç «parç, piyalə», arğuca (I, 366).

-ıç *isim*, **قش قِلِج قِنقا سِغماس** koş kıl+ıç kınka sığmas = qoşa qılınc qına sığmaz (I, 365), aş+ıç «qazan, tava» (I, 125).

-iç *isim*, **كُتِج** köt+iç «söyüş» (I, 365).

-uç *isim*, **تُقُج** tok+uç «çörək» (I, 364).

-aş *isim*, **اَدَش** ad+aş «arxadaş, dost» (I, 131).

-kı *isim*, **اَتاقى** ata+kı «atacığım, atacan» (III, 203), **اَناقى** ana+kı «anacığım, anacan» (III, 203).

-kıya *isim*, **اُغُلقِيا** oğul+kıya «oğulcuğaz» (III, 167), **قِيز قيا** kız+kıya «qızcığaz» (III, 167), mənqlig kara tuz+kıya = ey xalcığazı olan əsmər (III, 312).

-kiyə *isim*, **اَركِيا** ər+kiyə «ərciyəz, kişiciyəz» (III, 167), **ييركيا** yer+kiyə «yerciyəz» (III, 167), **بيرنك مَنكا سوُزكِيا** berinq manqa söz+kiyə = mənə (bircə) sözciyəz veriniz (III, 312), **يَلـــــقِن تتار كُزكِينا** yalwın tutar köz+kiyə = şirin üzlü, gözciyəzi əfsunlu (III, 312).

-duruk *isim*, **سَقَلدُرُق** sakal+duruk «çənənin altından keçərək papağı başda saxlayan ipək qaytan» (I, 500), **بُيُندُروق** boyun+duruk «boyunduruq» (III, 175), **قللدُرُق** Kalal+duruk «kişi adı» (I, 500), **يَنكلدُرق** yanqal+duruk «yapıncının arxasına, boynuna tikilmiş bir keçə parçası; kukulet, başlıq» (III, 336).

-dürük *isim*, **كُزُلدُرُك** közül+dürük «at quyruğundan hörülən, ağrıyan gözə qoyulan müalicəvi tor» (I, 500), **كُمُلدُرُك** kömül+dürük «atın sinəsindən keçən qayış» (I, 500).

-türük *isim,* جَنِشتُرُک çiniş+türük «Çində bitən bir meyvə» (I, 500).
-tık *isim,* قلتق kıl+tık «saçda olan kəpək» (I, 460).
-tuk *isim,* قُلتُق kot+tuk «qoltuq» (I, 460).
-unq *isim,* اُتُنک ot+unq «odun» (ot «od» sözündəndir, I, 191).
-ünq *isim,* کُلنک köl+ünq «gölməçə, su yığıntısı» (köl «göl» sözündəndir, III, 322).
-xan *isim,* بُرخان bur+xan «büt, buddist heykəli» (I, 428), تَرخان tar+xan «islamdan öncə verilən bir ad, ləqəbdir, bəy deməkdir», arğuca (I, 428).
-kan *isim,* جِبقان çıp+kan «innab» (I, 439), قراقان kara+kan «dağda bitən bir ağac növü» (I, 439), یَقرقن yakrı+kan «fınıq boyda qırmızı meyvəsi olan bir bitki» (III, 54).
-kən *isim,* یَتیکان Yeti+kən «Böyük Ayı bürcü» (III, 39), اُتوُکان Ötü+kən «Tatarıstan çöllərində bir yer adı» (I, 194).
-ğan *isim,* sar+ğan «şoran yerlərdə bitən bir ot» (I, 430), sağız+ğan «saxsağan» (I, 491), arpa+ğan «arpaya bənzər bitki, başağı olan, dəni olmayan bitki» (I, 195), baş+ğan «çəkisi əlli ritldən yüz ritlədək olan böyük balıq; xalqın başçısı» (I, 430).
-gən *isim,* tənqri+gən «alim, bilgin adam» (III, 327), çüm+gən «çəmənlik, ayrıq otu» (I, 434).
-ğa *isim,* kar+ğa «qarğa» (I, 420), sarıç+ğa/sırıç+ğa «çəyirtkə» (I, 469), kobur+ğa «bayquş» (I, 469), yımırt+ğa «damarı olmayan ispanaq, gül kələmi kimi təzətər tərəvəz; xiyar kimi kövrək olan nəsnə» (I, 373), yumurt+ğa «yumurta» (I, 373), yorınç+ğa «yonca» (III, 373).
-gə *isim,* çəkür+gə «çəyirtkə» (I, 470).
-lan *isim,* ars+lan «aslan» (III, 358), burs+lan «bəbir» (III, 362).
-dak *isim,* bağır+dak «lifçik, önlük» (I, 479).
-duk *isim,* burun+duk «buruntax» (I, 479).
-lak *isim,* bağır+lak «bağırtlak deyilən quş» (I, 480), kaşğa+lak «qaşqaldaq» (I, 498), kız+lak «qaraquş deyilən bir quşdur, quyruğu qırmızı olur; ağacdələn» (I, 459).

-dıç *isim,* sağ+dıç «dost, sağdış» (I, 444), suğ+dıç «qışda dostlar arasında növbə ilə düzəldilən şülən, gəzmə ziyafəti» (I, 444), saw+dıç «qələmçələrdən hörülərək içinə meyvə və buna bənzər şeylər qoyulan nəsnənin adı; səbət, sələ» (I, 444).

-ağu *isim,* **قراغوُ** kır+ağu=qırov. Soyuq gecələrdə düşür (I, 437), **بُزاغوُ** buz+ağu «buzov» (I, 437), **تَقاغُو** tak+ağu «toyuq» (I, 438), **تُماغوُ** tum+ağu «timov, nəzlə, qrip» (I, 438), **بُقاغُو** buk+ağu «qandal», oğruların qollarına vurulur (I, 437).

-əgü *isim,* **كُزاكوُ كُيماس اُزُون بُلسا اَلِک** köz+əgü uzun bolsa, əlig köyməs = maşa uzun olsa, əl yanmaz (I, 438), **كَراكوُ** kər+əgü = türkmənlərin dilində «çadır» deməkdir, köçərilərə görə, «qışlıq ev» mənasına gəlir (I, 438).

-ağut *isim,* alp+ağut «təkbaşına düşmənə hücum edən igid, yenilməz güləşçi, bahadır, pəhləvan», (I, 199), ur+ağut «qadın, arvad» (I, 194).

-(a)muk *isim,* kara+muk «buğda içində bitən qaramuq» (I, 468), kızl+amuk «qızılca, qızılcaya bənzər sivilcələr» (I, 498), çıça+muk «çəçələ barmağın yanındakı barmaq, üzük barmağı, adsız barmaq» (I, 468), oğul+muk «üstünə tir atılmaq üçün uzadılmış düz dirək» (I, 205) sol+amuk «sola-xay, solaq» (I, 468).

-kın *isim, cəm şəkilçisi,* kız kır+kın «cariyələr» (I, 340). Kır+kın sözü *kız* sözü ilə (r<z əvəzlənməsi) əlaqədardır.

-nak *isim,* kır+nak «cariyə. Yabaku, kay, çomul, basmıl, oğuz, yəmək və qıpçaq dillərində» (I, 459). Kır+kın sözününün sinonimidir. (Burada da r<z əvəzlənməsi var).

-sak *isim,* kuruğ+sak «mədə, qursaq» (I, 479).

-suk *isim,* bağır+suk «bağırsaq» (I, 479), tolar+suk «ayaq dabanı» (I, 479).

-düz *isim,* kün+düz «gündüz» (I, 447).

-danq *isim,* ol+danq «padoş, çarığın altı» (I, 176).

-dənq *isim,* iz+dənq «balıq ovunda işlədilən tor növü» (I, 176).

-dınq *isim,* ay+dınq «aydın, ay işığı» (I, 177).

-ğak *isim,* baş+ğak «sümük çıxıntısının üstü» (I, 457).

-gük *isim,* üb+gük «şanapipik, hop-hop quşu», çigilcə (I, 171), səmür+gük «bülbülə bənzər bir quş» (II, 285), kös+gük «göz qaytarmaq üçün üzüm bağlarına və bostanlara qoyulan müqəvva, bostan oyuğu» (II, 284).

-ça *isim,* karın+ça «qarışqa» (I, 479), ka+ça «qab» (III, 202), ka-ka+ça «qab-qacaq» (III, 202), bar+ça «bütün, hamısı» (I, 414).

-çə *isim,* ne+çə «neçə, nə qədər» (III, 209).

-mak *isim,* **بَشمَق** baş+mak «başmaq». Oğuzca (I, 454).

-tar *isim,* **بَشتَر** baş+tar «oraq». Arğuca (I, 444).

-mən *isim,* **كوُزمان** köz+mən «közdə bişirilən çörək» (I, 435).

-ma *isim,* bulğa+ma «bulama, yağsız, dadsız bulamac» (I, 471), kıy+ma «əriştə» (III, 170), tut+ma «sandıq» (I, 425)

-mə *isim,* süz+mə «keş» adlanan yağsız quru pendir, ayran süzməsi» (I, 426), kəs+mə «pərçəm, yal, kəkil» (I, 426), tüg+mə «düymə» (I, 426), tiz+mə «şalvarın bağı, torbanın ağız bağı və buna bənzər nəsnələr» (I, 426).

-mak *isim,* çak+mak «qov, çaxmaq» (I, 456), boğ+mak «köynək düyməsi; boyunbağı, sinəbənd, gərdəbənd» (I, 454), kıs+mak «üzəngi qayışı, kəmənd» (I, 459, 460), yar+mak «pul» (III, 130), tokı+mak «toxmaq» (III, 173), udh+mak «şəyird, davamçı, ustasına uyan» (I, 162), tar+mak «yırtıcı heyvanların pəncəsi, caynaq» (I, 455).

-mək *isim,* tür+mək «yemək, dürmək» (I, 461), iç+mək «quzu dərisindən tikilmiş kürk» (I, 195).

-man *isim,* **سِقمان** sık+man «üzüm sıxma mövsümü» (I, 435), **قُرمان** kur+man «sadaq, oxdan, ox qabı» (I, 435), **بَتمان** bat+man «batman, ağırlıq ölçüsü» (I, 435).

-mən *isim,* **سُكمان** sök+mən «savaşda qoşun səflərini sökən, yaran igidlərə verilən ləqəb» (I, 435), **أرتمان** ört+mən «örtmə, talvar, çardaq, dam» (III, 358).

-mış *isim,* **أسُقمِشا ساقِغ قمُغ سوُڤ كُرُنوُر** usuk+mış+a sakığ kamuğ suw körünür = susamışa ilğım [sərab] bütün su görünər (I, 239).

-miş *isim,* **كُربا يَمِش** körpə ye+miş = təzə meyvə (I, 413), **مَيل يَمِش** mayıl ye+miş = yetişmiş şaftalı və qovun kimi meyvələrin çürüməyə, xarab olmağa üz tutması (III, 166).

-ç *isim,* **ساقِنج** sakın+ç «sıxıntı (III, 293), **اِنُنج** inan+ç (I, 190), **اَقِنج** awın+ç «ovunma» (I, 189), **أكُنج** ökün+ç «peşmanlıq» (I, 189), **يُكُنج** yükün+ç «namaz, ibadət» (I, 223), **أجلج** üçlü+ç «başları bir dəmirlə birləşdirilərək üç çubuqla düzəldilən dovşan tələsi» (I, 159).

-əç *isim,* **اَتِج** ət+əç «uşaqların cöyüz-cöyüz oynadıqları çökək» (I, 125), **كُمَج** köm+əç «külə basdırılaraq bişirilən çörək» (I, 366).

-üç *isim,* **كُمُج** köm+üç «dəfinə, xəzinə, gömü» (I, 366), **أنُج** en+üç «gözə enən pərdə, katarakt» (I, 126).

-ınç *isim,* **اَذكوُ قِلنِج** edhgü kıl+ınç = xoş əxlaq (III, 324).

-inç *isim,* səw+inç «sevinc» (III, 323).

-unç *isim,* **أمُنج تَنكريكا** um+unç tənqrigə = ümid tanrıyadır, tanrıdan mədəd (III, 384).

-ünç *isim,* **بوُ ايشكا نا أكُنج كَراك** bu işkə nə ög+ünç kərək = bu işlə öyünməyə nə gərək var (I, 189), ürk+ünç «hürkmə, vahimə, xaos» (I, 284).

-ş *isim,* oyna+ş «oynaş, başqa biri ilə sevişən» (I, 180).

-ış *isim,* at+ış «atış, atışma» (I, 130), alk+ış «alqış, dua etmək, kimisə öymək, yaxşılıqlarını saymaq» (I, 161), karğ+ış «qargış, bəddua, lənət» (I, 449).

-iş *isim,* **تَكِش** təg+iş «mübadilə, dəyişmə» (I, 372).

-uş *isim,* **تُقِش** tok+uş «toqquşma» (I, 63), **قُجُش** koç+uş «qucaqlaşma, qucuşma» (I, 372), **أرِش** ur+uş «vuruş, vuruşma» (I, 63), **أقش** uk+uş «zəka, dərrakə, ağıl» (I, 131).

-üş *isim,* **سُكُش** sög+üş «söyüş, söyüşmə» (I, 372), **أُلش** ül+üş «bölüşdürmə, pay, hissə» (I, 132).

-m *isim,* **ييم** ye+m «yemək, təam» (III, 147).

-ım *isim,* **اَذرم** adhr+ım «yəhərin altına iki tərəfdən qoyulan keçə» (I, 169), **سَرم** sar+ım «filtr, mayenin süzülməsi üçün qabların ağzına gərilən ipək qumaş» (I, 396), **يَذِم** yadh+ım «döşək, yayğı» (III, 25), **بر بيجم قاغُون** bir bıç+ım kağun = bir dilim

qovun (I, 394), **بير سَغِم سوُت** bir sağ+ım süt = bir sağım süd (I, 369), **قُرقُنج قيم بُلدى** korkunç kıy+ım boldı = qorxunc qıyım oldu, böyük dəhşət yaşandı (III, 166), **أل اَلِمِن اَلدى** ol al+ım+ın aldı = o, borcunu aldı (I, 220).

-im *isim*, **تام كَرم** tam kər+imi = divara gərilən örtü (I, 396), **بير تِلِم اَت** bir til+im ət = bir dilim ət (I, 396), **بير تِزِم ينجُو** bir tiz+im yinçü = bir düzüm mirvari (I, 395), **اَكرم** əgr+im «suyun toplandığı, qaynadığı və girdablandığı yer» (I, 169), **بير أكِم يير** bir ək+im yer (I, 143), **اَلِملِغ بيرملِكدِن أزلُشدى** alımlığ ber+-im+ligdin üzlüşdi = borc sahibi ilə borclu ödəşdi (I, 276).

-um *isim*, **بير أرُم أت** bir or+um ot = bir çəngə ot, bir xorum ot (I, 143), **بير اَرتُرُمى سوڤُ** bir ər tur+umı suw = bir adam boyu dərinlikdə su (I, 395), **بير يُغرُم اوُن** bir yoğr+um un = bir xəmirlik, bir yoğrum un (III, 47), **قُونُم** kon+um «yurd, oymaq» (II, 133).

-üm *isim*: **بير أبُم موُن** bir öp+üm mün = bir qurtum şorba (I, 142), **بير يُكرُم يير** bir yügr+üm yer = bir dəfəyə qət ediləcək qədər yer (III, 47), öl+üm «ölüm» (I, 143).

-ın *isim*, **اَقِن** ak+ın «axın» (III, 41).

-in *isim*, **اَسِن** əs+in əsdi = əsinti, külək əsdi (I, 218), **كَلِن** kəl+in «gəlin» (I, 403), **اَكِن** ək+in «şum» (I, 145).

-un *isim*, **بُلُن يُلُندى** bul+un yolundı = əsir buraxıldı, azad edildi (III, 78).

-ün *isim*, **تُكُن** tüg+ün «düyün» (I, 399), **تُتُن** tüt+ün «duman, tüstü» (I, 399).

-t *isim*, **أل قوُى دَن قُرُت سُغدى** ol koydan kuru+t soğdı=o, qoyun-dan qurut əldə etdi (II, 43), **يُغرت قُيُلدى** yoğur+t koyuldı= yoğurt, qatıq qatılaşdı (III, 185), **برت** ber+t «ağanın hər il öz köləsindən aldığı vergi (I, 351).

-ıt *isim*, sığ+ıt «ağlama, sızlama, sıtğama» (I, 353).

-it *isim*, kir+it «qıfıl» (I, 364).

-ut *isim*, bas+ut «kömək, arxa» (I, 361).

-üt *isim,* yet+üt «qoşuna göndərilən əlavə kömək» (II, 282), kedh+üt berdi = hörmət əlaməti olaraq xələt, paltar verdi (I, 354), köç+üt «at» (I, 363), ög+üt «öyüd» (III, 155).

-ğ *isim,* **يَرَغ** yara+ğ «fürsət, imkan» (III, 20), **يَماغ** yama+ğ «yamaq» (III, 32).

-k (ق ka) *isim,* **يُرق** yorı+k «xasiyyət, rəftar, gedişat» (III, 22).

-k (ک ke) *isim,* **تِلاک** tilə+k «dilək, arzu» (I, 410), **اِستَک قُبدی** istə+k kopdı = istək yarandı (I, 179).

-ak *isim,* kuç+ak «quçaq, ağuş» (I, 383).

-ək *isim,* ər biç+ək kikçürdi = adam bıçaqları bir-birinə sürtdü (II, 206), tüw+ək «silah növü»; tüw- «tüpür-» kökündəndir, tüf+əng də bu sözdəndir, yaş söyüd ağacının və ya buna bənzər ağacın qabığı boru şəklində çıxarılır, sərçələri vurmaq üçün içinə yumru daş qoyularaq atılır» (I, 388).

-ık *isim,* kat+ık «tutmac yeməyinə sirkə və yoğurtla birlikdə tökülən nəsnə, qatıq» (I, 383).

-ik *isim,* **اُل قُلِن تَبک تَبدی** ol kulın təp+ik təpdi=o, qulunu təpiklədi (I, 387).

-uk *isim,* kon+uk «qonaq, müsafir» (I, 385), tan+uk «şahid» (II, 61), bıç+uk «kəsilmiş bir şeyin yarısı» (I, 379).

-ük *isim,* yit+ük «itik, itən şey» (III, 24), kedh+ük «yapıncı, yağmurluq, plaş» (I, 390).

-ığ *isim,* **قُرغ** kor+ığ «bəylərin və ya başqalarının qoruğu» (I, 377), ayt+ığ «sual» (I, 174).

-ig *isim,* **تِزک** tiz+ig «sıra, səf, düzüm, cərgə» (I, 387), bil+ig «bilik, elm» (I, 368).

-uğ *isim,* **قُشُغ** koş+uğ «şeir, qəsidə» (I, 377), **تَبُغ** tap+uğ «sitayiş, ibadət; xidmət, qulluq» (I, 375), **تُتُغ** tut+uğ «rəhin, girov; əfsun, sehr» (I, 375), **يُرتُغ** yort+uğ «daim xaqanın yanında olan adamlar, məiyyət» (III, 43).

-üg *isim,* **سُرُک** sür+üg «sürü» (I, 389), **اُتُک** üt+üg «ütü» (I, 137), öl+üg «ölü» (I, 65).

-ğa *isim,* kap+ğa «iri qapı, darvaza, qala qapısı» (I, 420).

-gə *isim,* bil+gə «alim, filosof» (I, 422), ö+gə «müşavir, yaşlı və ağıllı adam» (I, 154).

-ğı *isim,* yum+ğı «topa» (III, 37).

-gi *isim,* ter+gi «süfrə, dəstərxan» (I, 423), təz+gi «qaça-qaç, vahimə» (I, 423).

-ğu *isim,* bıç+ğu «mişar» (I, 63), sor+ğu «qan alan alət, neştər» (I, 66).

-gü *isim,* ber+gü «vergi, borc» (I, 422), bilə+gü «bülöv» (I, 438), kül+gü «gülüş, yumor» (I, 160), kedh+gü «geyim, paltar» (I, 424), bəl+gü «bəlgə, nişan, əlamət» (I, 422).

-ür+gə *isim,* kös+ür+gə «köstəbək, çöl siçanı cinsindən bir heyvan» (I, 470), çək+ür+gə «çəyirtkə». Oğuzca. Digər türklər çəyirtkə uçmazdan əvvəl ona belə deyirlər (I, 470).

-ür+gü *isim,* kəs+ür+gü «dağarcıq» (I, 470), tüş+ür+gü «qolun çaya qarışan ağzı, dəyirmandan çaya axan su» (I, 470), köt+ür+gü «götürgə, onunla bir şey götürülən nəsnə» (I, 470), süp+ür+gü «süpürgə» (I, 470).

-nqu *isim,* **سَلنكو** sal+nqu «sapand» (III, 328), **قَلنكو** kal+nqu «suyun üstündə durmaq, suyun üzünə çıxmaq» (III, 328).

-nqü *isim,* **كُزنكوُ** köz+nqü «güzgü, ayna» (III, 328).

-ğaç *isim,* **قِسغاج** kıs+ğaç «qısqac, kəlbətin» (I, 444), **قُشغاج** kuşğaç «sərçə quşu» (I, 444), **قُسغاج** kus+ğaç «kiçik, qara bir heyvandır, adamı dişləyir», oğuzca (I, 444).

-ğuç *isim,* **بجغُوج** bıç+ğuç «qayçı, hər hansı bir şeyi kəsən nəsnə» (I, 442), **يُغُرغوُج** yuğur+ğuç «oxlov» (I, 473), sar/a/+ğuç «qadın yaşmağı, qadın örtüsü» (III, 196), tut+ğuç «qəlyanaltı, bir azca yemək» (I, 442).

-kaç *isim,* sar+kaç «qaramuq otu, kasnı, yabanı hindibaya bənzər bir ot» (I, 443).

-küç *isim,* ör+küç «qadınların başındakı saç hörgüsü, topası» (I, 159), ör+küç «sacayağı» (I, 159).

-ğak *isim,* tut+ğak «avanqard, öncü kəşfiyyat bölüyü» (I, 454), yat+ğak «keşikçi, mühafiz, qarovul» (III, 43), yapuş+ğak

«tikanlı bir ot, pıtrax» (III, 51), tar+ğak «daraq» (I, 454), or+ğak «oraq» (III, 45), kap+ğak «qapaq» (I, 458).

-gək *isim*, tür+gək «boğça» (II, 284), kür+gək «qar təmizləyən kürək» (II, 284).

-ğuk *isim*, تَبُزغُق تَبزدی tapuz+ğuk tapızdı = tapmaca tapdırdı (II, 180), kay+ğuk «qayıq» (I, 235).

-gük *isim*, əs+gük «xalta, itin boynuna keçirilən halğa» (II, 284).

-ğan *isim***,** sıç+ğan «siçan» (III, 243), tawış+ğan «dovşan» (I, 354).

-gən *isim***,** kösür+gən «köstəbəyin bir növü» (I, 494).

-kan *isim***,** sakır+kan «siçovul» (I, 493), yoğur+kan «yorğan» (I, 243).

-sığ *isim***,** kün bat+sığ «günbatar, qərb» (I, 450).

-suğ *isim***,** kün toğ+suğ «gündoğar, şərq» (I, 450), tut+suğ «vəsiyyət» (I, 450).

-di *isim***,** ög+di ol ərig kanıtğan = tərif o adamı həmişə vəcdə gətirir, coşdurur (I, 489), təg+di «gəlinin ata evini ziyarət etməsi» (III, 217).

-du *isim***,** sın+du «qayçı, dərzi qayçısı» (I, 415), um+du «dilək, istək, umu, umunc» (I, 184).

-ti *isim***,** sök+ti «kəpək» (I, 413).

-tu *isim***,** yar+tu «yonqar, talaşa» (III, 33), sok+tu «kolbasa» (I, 413).

-tü *isim***,** ik+tü «əldə bəslənən heyvan, əhliləşmiş heyvan», ikit- «eyitmək, tərbiyə etmək sözündəndir» (I, 174).

-çək *isim***,** bilin+çək «oğrunun əlində tutulan əşyayi-dəlil» (I, 485).

-çuk *isim***,** sarma+çuk «bir əriştə növü» (I, 498).

-çük *isim***,** bürün+çük «şal, kəlağayı» (I, 247), ör+çük «kəkil» (I, 166).

-maç *isim***,** tut+maç «xəngəl» (I, 442), قُغُرماج koğur+maç «qovurğa» (I, 473), ققُرماج kawur+maç «qovurğa» (I, 473), قِيمَج بُرک kıy+maç börk = tiftikdən [keçi tiftiyindən] hazırlanan ağ papaq (III, 171).

-məç *isim,* yörgə+məç «bağırsaq içində bişirilən bir yemək növü» (III, 54).

-rak *isim,* top+rak «torpaq» (I, 454), bat+rak «ucuna bir ipək parçası taxılan mizraq» (I, 452), kıs+rak «qısraq, madyan» (I, 459).

-çu *isim,* اِقتجوُ akın+çu «axınçı, gecə ikən düşməni basan əsgər» (I, 190, nadir hallarda).

-çü *isim,* köm+çü «dəfinə, yatır, xəzinə» (I, 415), yörgən+çü «sarıq, dolaq; yorğan, bürüncək» (II, 336).

-a *isim,* uw+a «bir yemək adı» (I, 154).

-ı *isim,* tol+ı «dolu, buzlu yağış» (I, 195), yaz+ı «çöl, yazı» (I, 191).

-u *isim,* yak+u «yağmur yapınçısı, plaş» (III, 214).

-ü *isim,* sünq+ü «süngü» (I, 357), sər+ü «rəf, taxça, tərək» (III, 210).

-mur *isim,* yağ+mur «yağış, yağmur» (I, 170).

-nək *isim,* ter+nək «yığıncaq, toplantı, dərnək» (I, 461).

-lar *cəm şəkilçisi,* اُراغت لار يوُزن يبلشدى urağut+lar yüzin yıplaşdı =qadınlar bir-birlərinin üzünə ip salaraq epilyasiya etdilər (III, 114), اَلب لار كُكرَشدى alp+lar kökrəşdi = igidlər nərə çəkdilər (II, 228).

-lər *cəm şəkilçisi,* بَكلار بيربيركا يَغِقتى bəg+lər bir birgə yağıktı = bəylər bir-birinə yağı oldular (III, 72).

-la *cəm şəkilçisi,* turğan uluğ ış+la+ka=böyük iş+lər+ə qalxışan, tergi urup aş+la+ka=yemək+lərə süfrə açıb, tumluğ kadır kış+la+ka=soyuq, sərt qış+lara (qarşı çıxan adam), kodhtı ərig umduru=xalqı ümid içində qoydu (II, 73).

-lə *cəm şəkilçisi,* təgür məninq sawımı bilgə+lə+gə, ay=ey, mənim sözümü bilgə+lərə yetir (III, 158).

-an *cəm şəkilçisi,* اُغلان اَتِكتى oğl+an ətikti=oğlan ətə-qana doldu, tonbullaşdı, böyüdü (I, 240).

-ən *cəm şəkilçisi,* تُوبلُک اَرَن tüplüg ər+ən=soylu adamlar, əsalətli kişilər (III, 128).

-t *cəm şəkilçisi,* teg+it «تِكين tegin» sözünün cəmidir. Lüğəvi mənası «kölə» deməkdir, sonra xaqan oğullarına unqun [ünvan] olmuşdur. Bu, qaydaya zidd bir cəmdir» (I, 362).

-z *cəm və qoşalıq şəkilçisi,* اِكزاُغلان ikki+z oğlan = ekiz uşaq (I, 198). *DLT yazılan dövrdə öz əski funksiyasını itirmişdir.*

-ğun *cəm şəkilçisi,* قدْنِ قدْناغُن kadhın kadhna+ğun = qayın, qayna-talar. Kürəkənlər üçün söylənir, ard-arda, qoşa söylənir (I, 499).

-kın *cəm şəkilçisi,* kız kır+kın «cariyə+lər» (I, 340).

-(n)ınq *yiyəlik hal şəkilçisi,* تَقغاج خانِک تُرقُوسی تَلِم Tawğaç xan+nınq turkusı təlim=Tabğaç xanının ipəyi çoxdur (I, 421).

-(n)inq *yiyəlik hal şəkilçisi,* بُرننک اُرتَق böri+ninq ortak=qurdun ovu ortaqdır (I, 431), küni+ninq külinə təgi yağı = günü gününün külünə qədər düşməndir (III, 221).

-(n)unq *yiyəlik hal şəkilçisi,* قُزغُونُک یغاج باشِندا kuzğun+unq yığaç başında = quzğunun ovu isə ağac başındadır (I, 431).

-(n)ünq *yiyəlik hal şəkilçisi,* تونُن کوُنُک قرشیسی اُل tün kün+ünq karşısı ol = gecə gündüzün qarşısı, ziddidir (I, 419).

-ka *yönlük hal şəkilçisi,* یَلاوَجقا اَلقِش بیرکِل yalavaç+ka alkış bergil =Məhəmməd peyğəmbərə salavat çevir (I, 161), kuruk kaşuk ağız+ka yaramas = quru qaşıq ağıza yaramaz (I, 348), kuruğ söz kulak+ka yakışmas = quru söz qulağa yaraşmaz (I, 348), tağ tağ+ka kawuşmas = dağ dağa qovuşmaz (III, 153).

-gə *yönlük hal şəkilçisi,* ol bəg+gə alkış berdi = o, bəyə alqış etdi, dua etdi (I, 161), kişi kişi+gə kawuşur = insan insana qovuşar (III, 153), tör+gə keç = yuxarı başa keç (I, 130), ol əw+gə barığsadı = o, evə getmək istədi (III, 293).

-a *yönlük hal şəkilçisi,* ol məni atam+a oxşatdı=o məni atama oxşatdı, bənzətdi (I, 292), usukmış+a sakığ kamuğ suw körünür = susamışa ilğım tamam su görünər (I, 239).

-ə *yönlük hal şəkilçisi,* məninq közüm+ə nənq ilərdi = mənim gözümə bir şey ilişdi, göründü (I, 229), ol məninq közüm+ə sakıdı =o mənim gözümə xəyal kimi göründü (I, 247).

-ra *istiqamət hal şəkilçisi,* بَشرا ققِلدی baş+ra kakıldı = nə isə başa qaxıldı, qaxınc oldu (II, 158).

-rə *istiqamət hal şəkilçisi,* تَتِغ کوُزرا، تِکَانِک تُبرا tatığ köz+rə, tikənig tüb+rə=tatın gözünə, tikanın dibinə vur (II, 277).

-ru *istiqamət hal şəkilçisi,* اُل مَنِک تَبارُو کَلدی ol mənin q taba+ru kəldi = o mənim tərəfimə gəldi (I, 436), اَر یُقارُو تُردی ər yo-ka+ru turdı = adam ayağa qalxdı (II, 209).

-ar *istiqamət hal şəkilçisi,* کُندا اِشی یُکسَبَن یوُقاراَغار kündə ışı yüksəbən yok+ar ağar = onun işi gündən-günə yüksələr, *hər-fən*: yuxarı yüksələr (I, 337).

-r *istiqamət hal şəkilçisi,* قِلغِل اَنکَر اَغرلِــق kılğıl anqa+r ağırlık = ona hörmət elə (I, 175), بَک اَنکارأت بیردی bəg anqa+r ot berdi = bəy ona ağı verdi, onu zəhərlədi (I, 110), مَن مُنکَر اَیدِم mən munqa+r aydım = mən buna söylədim (III, 316).

-karu (ka+ru) *istiqamət hal şəkilçisi,* یَغی قارُو کِرش قُردُم yağı+ka+ru kiriş kıldım = düşmənə qarşı ox-yayımı çəkdim, hücum etdim (II, 117).

-kerü (ke+rü) *istiqamət hal şəkilçisi,* اَمکاک کَروأِلِندی əmgək+kə+rü ulındı = əzaba, sıxıntıya düçar oldu (I, 249).

-ğaru (ğa+ru) *istiqamət hal şəkilçisi,* قِش یایــغرو سُقلنور kış yay+ğa+ru söwlənür = qış yaya pıçıldayır (III, 254).

-gerü (ge+rü) *istiqamət hal şəkilçisi,* اَنـدا بُلُب تَنکریکُرو تَبغــِن اُتار an-da bolup tənqri+gerü tapğın ötər=orada tanrıya ibadət borcu-nu ödər (III, 235).

-ığ *təsirlik hal şəkilçisi,* اَر اَشِغ تَتغَندی ər aş+ığ tatğandı=adam aşı dadlı hesab etdi (II, 242), اُل قیزغ سِنکِلَندی ol kız+ığ sinqilləndi = o, qızı özünə bacı saydı (III, 354).

-ig *təsirlik hal şəkilçisi,* اَلب اَرک یَقرتما alp ər+ig yawrıtma = alp adamı pisləmə (I, 195), یکِت لَرک اِشــلَتُو yigitlər+ig işlətü = igidləri işlədərək (I, 293).

-uğ *təsirlik hal şəkilçisi,* اَر قُشُغ اَمَجلادی ər kuş+uğ əməçlədi= adam quşu nişan aldı (I, 319).

-üğ *təsirlik hal şəkilçisi,* اُل سوُزُک اَنکلادی ol söz+üg anqladı =o, sözü anladı (I, 312).

-ı *təsirlik hal şəkilçisi*, təgür məninq sawım+ı=çatdır mənim sözümü (III, 158), kizləp tutar tayım+ı = gizlər mənim dayçamı (III, 68), alktı məninq yayım+ı = məhv elədi yayımı (III, 184), sürdi məninq koyum+ı = qoyunlarımı sürüb apardı (II, 122), kaz takı kordayım+ı = qazımı, ördəyimi (II, 190), aldı Turumtayım+ı = Turumtay adlı qulumu aldı (II, 138).

-nı *təsirlik hal şəkilçisi*,ol bu at+nı ağırlandı = o bu atı bahalı hesab etdi (I, 314), **كَنج اَنا سِن اَمدى** kənç anası+nı əmdi = uşaq anasını əmdi (I, 221).

-ni *təsirlik hal şəkilçisi*, bəg+ni yağı basdı = yağı bəyi basdı, basqın elədi (I, 44), ər+ni yel tokıdı = adamı yel çarpdı, yel toxundu (III, 247).

-n *təsirlik hal şəkilçisi*, ol kız+ı+n əgətlədi = o, qızını cariyə sahibi etdi, qızına cariyə verdi (I, 319), oğl+ı+n ışka tığrattı=oğlunu işə həvəsləndirdi (II, 317), ol at+ı+n tigrətti=o, atını fınxırdaraq, kişnədərək sürdü (II, 317), ol anqar köz+i+n alarttı = o ona gözünü bərəltdi (III, 369).

-da *yeirlik-çıxışlıq hal şəkilçisi*, **تَشُک سُقدا بَلکُرار** teşük suw+da bəlgürər = deşik suda bəlli olar (I, 387), **اُل اَنى تاغدا يَيلَتّى** ol anı tağ+da yaylattı = o onu dağda yaylatdı (II, 337), **تِلدا جقار اَذكوُ سوُز** tıl+da çıkar edhgü söz = dildən çıxar yaxşı söz (III, 160), **قوُيدا ياغ اَكسوُماس قُزدا قاراَكسُوماس** kuz+da kar əksüməs, koy+da yağ əksüməs = quzeydən qar, qoyundan yağ əskik olmaz (I, 340), **بوُ اَت اَندا ييک** bu at an+da yeg =bu at ondan yaxşıdır (III, 146), **يُغُرقندا اَرتُق اَذق كُسُلسا اُشِيوُر** yoğurkan+da artuk adhak kösülsə, üşiyür = ayaq yorğandan artıq uzadılsa, üşüyər (II, 159).

-də *yeirlik-çıxışlıq hal şəkilçisi*, **كُندا اِرُک يُق** kün+də irük yok = günəşdə çat olmaz (I, 138), **بَكدا قِيق يُق** bəg+də kıyık yok = bəydə sözdən dönmək olmaz (I, 138), **يَزيدا بُرى اُليسا اَقدا اِت بَغرى تَرتِشوُر** yazı+da böri ulısa əw+də ıt bağrı tartışur= çöldə qurd ulasa, evdə qurda acıyan köpəyin bağrı sızlar (III, 238), **بلمِش ياک بلماذُک كِشيداً ييک** bilmiş yek bilmədük kişi+də yeg = tanıdığın şeytan tanımadığın adamdan yaxşıdır (III, 159), **كُنى**

بَررکَیک نِک کوُزندا اَذِن باشی یوُق köni barır keyikninq közin+də adhın başı yok = düz gedən geyikin gözündən başqa yarası yoxdur (III,152), اَر أفکا سِندا أرُلدی ər öpkəsin+də ürüldi = adam qəzəbindən şişdi, (I, 242).

-ta *yeirlik-çıxışlıq hal şəkilçisi,* مَن بوُایشتا أنِندِم mən bu ış+ta ulındım = mən bu işdən usandım, bezdim (I, 249), اَر ایشتا بُشتی تَرُندی ər ış+ta buştı tarundı = adam işdən bezdi, sıxıldı (II, 166), أل بُو ایشتا قُدُردی ol bu ış+ta kudurdı = o bu işdə çox çalışdı, işin üstünə düşdü (II, 112).

-dan *çıxışlıq hal şəkilçisi,* anı suw+dan keçürdi = onu sudan keçirdi (II, 179), ər tağ+dan kıdhı ıldı = adam dağdan aşağı endi (I, 221), ol kümüş altun+dan çöktürdi = o, qızıldan gümüşü ayırdı (II, 194).

-dən *çıxışlıq hal şəkilçisi,* ol ər ol özin kişi+dən abıtğan = o adam özünü hər kəsdən gizləyəndir (I, 208), köz+dən yırasa, könqül+dən yəmə yırar = gözdən iraq olan könüldən də uzaq olar (III, 317).

-dın *çıxışlıq hal şəkilçisi,* ol məni suw+dın keçrükli ərdi = o məni sudan keçirənlərdən idi (II, 183), tağ+dın inildi= dağdan enildi (II, 154).

-din *çıxışlıq hal şəkilçisi,* küç el+din kirsə = zorakılıq (*məcazi*:) qapıdan girsə (II, 46).

-dun *çıxışlıq hal şəkilçisi,*اَتِک تیشی بوُزدُن سِزلادی anınq tışı buz+-dun sızladı = onun dişi buzdan sızladı (III, 267), أل مَنی أرُندُن تُرغُردی ol məni orun+dun turğurdı = o məni yer[im]dən durğuzdu (II, 191).

-dün *çıxışlıq hal şəkilçisi,* أل مَندَن أنکدُن بَردی ol məndən önq+dün bardı = o məndən öncə getdi (I, 114).

-tan *çıxışlıq hal şəkilçisi,* أل اَذکُونی یَقلاقتَن اَذِردی ol edhgüni yaw-lak+tan ədhirdi = o, yaxşını pisdən, düzü əyridən, xeyiri şərdən ayırdı (I, 228).

-tən *çıxışlıq hal şəkilçisi,* تُرُو تُنکلُک تَن چِقار törü tünqlük+tən çıkar = törə bacadan çıxar (II, 46).

-tın *çıxışlıq hal şəkilçisi,* təgmə yanqak+tın budun aklışdı = hər tərəfdən xalq axışdı (I, 277), ər ış+tın tıdhındı = adam işdən qaçındı (II, 166).

-tin *çıxışlıq hal şəkilçisi,* kişi alası iç+tin, yılkı alası taş+tın = adamın alası içində, heyvanın alası çölündədir (I, 155).

-ın *alətlik hal şəkilçisi,* al+ın arslan tutar = al ilə aslan tutular (I, 148), kuş kanat+ın, ər at+ın = quş qanadı ilə, ər atı ilə (I, 109), yılkı yaz+ın atlanur=ilxı yazda atlaşır, at olur (I, 309), tıl+ın tügmişni tış+ın yazmas = dillə düyülən dişlə açılmaz, dilin vurduğu düyünü diş aça bilməz (II, 48).

-in *alətlik hal şəkilçisi,* küç+in oyuk tutmas = güc ilə oyuq tutulmaz (I, 148), kınqır köz+in bakıştılar = qızğın gözlə baxışdılar (I, 365), kılıç kınka küç+in sığdı = qılınc qına güclə sığdı (I, 365), olar iç+in etişdilər = onlar öz aralarında barışdılar (I, 143), bilig+in uluğlukka təgdim = biliklə ululuğa çatdım (II, 123).

-un *alətlik hal şəkilçisi,* kamuğ tolm+un tokıştılar = bütün silahlarla vuruşdular (I, 365), süsi ot+un oruldı = (düşmən) əsgəri ot kimi biçildi (I, 242).

-ün *alətlik hal şəkilçisi,* kılsa küç+ün bolmas anı tok, bay = onu güclə tox və zəngin etmək olmaz (III, 224).

-lıkın (**-lık+ın**) *alətlik hal şəkilçisi,* kutkı+lık+ın tapınğıl = səmimiyyətlə xidmət et (II, 162).

-ligin (**-lig+in**) *alətlik hal şəkilçisi,* isiz+li+gin kəlmə = şərlə gəlmə (II, 123).

-lügün (**-lüg+ün**) *alətlik hal şəkilçisi,* edhgü+lüg+ün kəl = xeyirlə gəl (II, 123), bakkıl anqar edhgü+lüg+ün = ona yaxşılıqla bax (I, 186).

-lə *alətlik hal şəkilçisi,* tüzün bir+lə uruş, utun bir+lə üstərmə =xoşxasiyyət adamla lap vuruş, alçaq adamla yarışma, çünki qabarar, pislik edər (I, 262), kanığ kan bir+lə yumas = qanı qanla yumazlar (III, 157), ol əwin tawar bir+lə toşğurdı = o, evini malla doldurdu (II, 191).

-m *mənsubiyyət şəkilçisi,* ol məni ata+ma oxşatdı = o məni atama oxşatdı, bənzətdi (I, 292).

-ım *mənsubiyyət şəkilçisi,* eşyək ayur baş+ım bolsa, sundırıda suw içgəymən = eşşək deyər ki, bircə başım salamat olsun, dənizdən su içərəm (I, 472), məninq kız+ım = mənim qızım (I, 340), məninq kur+ım uluğ = mənim məqamım yüksəkdir (I, 339), bəg oğrında məninq ış+ım etildi = bəyin dövləti sayəsində işim düzəldi (I, 126).

